http://az.trend.az/business/economy/1868261.html

*BİZNES VƏ İQTİSADİYYAT XƏBƏRLƏRİ*

# Azərbaycan və Türkiyə dövlət planlaşdırılması sahəsində əməkdaşlığı davam etdirirlər

28 APREL 2011, 16:21



Azərbaycan, Bakı, 28 aprel /Trend, müxbir A.Axundov/
Məqalə müəllifi ilə əlaqə ünvanı: news@trend.az

Azərbaycan və Türkiyə Azərbaycanın sosial-iqtisadi göstəricilərinin proqnozlaşdırılması üçün ümumi bərabərlik modelinin yaradılması məsələsi ilə bağlı birgə tədqiqatlar aparırlar. Trend-in məlumatına görə, bu barədə **Azərbaycan İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyev** deyib.

"Azərbaycan Prezidentinin müvafiq sərəncamına əsasən, ölkənin sosial-iqtisadi siyasətinin elmi bazasının möhkəmləndirilməsi, qiymətlər bərabərliyi modelinin yaradılması ilə bağlı işlər aparılır", - Vəliyev qeyd edib.

Onun sözlərinə görə, bu istiqamətdə nazirlik və Türkiyə Dövlət Planlaşdırma Təşkilatı arasında birgə iş görülür.